*Azərbaycan dili və ədəbiyyat tədrisi*
2026 / Cild 72, Nömrə 3 / 68–77
https://doi.org/10.48445/v3072-1230-0695-m

# Əli Nəzmi Mirzə Ələkbər Sabir ideyalar aləminin davamçısı kimi

***Ulduz Qəhrəmanova*** [1]

**XÜLASƏ**

*Azərbaycan ədəbi məktəblərinin yaranması bir qayda olaraq böyük sənətkarların adı və yaradıcılıqları ilə bağlıdır. Sabir ədəbi məktəbi isə o dövr ədəbiyyatımızda (XX əsr – U. Q.) böyük hadisə idi. Çünki Sabir poeziyası xalqda özünütənqid, özünütərbiyə kimi önəmli xarakter formalaşdırır, onları milli intibaha çağırışa dəvət edirdi. Sabir satirik poeziyasının platforması vahid ictimai mübarizədə şüurlarda inqilabi cəbhə yaratmaqdan ibarət idi. Onun poetik novatorluğu da bu proqrama xidmət edirdi. Məlumdur ki, Sabirin parlayan inqilabi satirasını üzə çıxaran "Molla Nəsrəddin" ədəbi mətbu orqanı olmuşdur. Bu satirik jurnal nəşr olunduqdan sonra Sabirin davamçıları şairin səsinə səs vermiş, ona sadiq silahdaş olmuşlar. Sabirin milli poeziyaya gətirdiyi novatorluğu ilk olaraq Mirzə Cəlil Məmmədquluzadə yüksək qiymətləndirmişdir.*

**AÇAR SÖZLƏR**

*Mirzə Ələkbər Sabir, Əli Nəzmi, satirik poeziya, ideya davamçısı*

**MƏQALƏ TARİXÇƏSİ**

Göndərilib: 21.05.2026
Qəbul edilib: 16.08.2026

[1]Filologiya üzrə fəlsəfə doktoru, dosent, Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan
https://orcid.org/0009-0003-4418-9319 | ulduzkahraman1@gmail.com

 Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

*Teaching of Azerbaijani Language and Literature*
2026 / Volume 72, Number 3 / 68–77
https://doi.org/10.48445/v3072-1230-0695-m

# Ali Nazmi Mirza Alakbar Sabir as a Successor to the World of Ideas

***Ulduz Kahramanova*** [1]

**ABSTRACT**
*The emergence of literary schools in the world of literature is usually associated with the names and works of great artists. The Sabir literary school was not an ordinary occurrence in our literature of that time (20th century – U.K.) but a great event. Because the program of the aesthetics of Sabir's poetry consists of accepting and educating a critical attitude towards oneself in the people and the nation, calling for and inviting national renaissance. The platform of Sabir's satirical poetry was to build a revolutionary front in consciousness in a unified social struggle. M. A. Sabir's poetic innovation also served this program. It is known that the literary press "Molla Nasreddin" was the one that revealed Sabir's brilliant revolutionary satire. Thus, after Sabir's work was published in "Molla Nasreddin", his followers voted for the poet and became his loyal comrades-in-arms. The first person to see the innovation that Sabir brought to national poetry was Mirza Jalil Mammadguluzade.*

**KEYWORDS**
*Mirza Alakbar Sabir, Ali Nazmi, satirical poetry, ideological successor*

**ARTICLE HISTORY**
Received: 21.05.2026
Accepted: 16.08.2026

[1]Doctor of Philosophy in Philology, Associate Professor, Azerbaijan State Pedagogical University. Azerbaijan
https://orcid.org/0009-0003-4418-9319 | ulduzkahraman1@gmail.com

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

Ədəbiyyat aləmində ədəbi məktəblərin yaranması bir qayda olaraq böyük sənətkarların adı və yaradıcılıqları ilə bağlıdır. Məsələn: Nizami məktəbi, Füzuli məktəbi, Vaqif məktəbi, Axundov məktəbi və s. Sabir yaradıcılığı satirik inqilabi poeziya məktəbinin təməl daşıdır. Sabirin satira məktəbi fərdi üslubi yaradıcılıq tərzi ilə Şimali və Cənubi Azərbaycan şairlərinin əksəriyyətini öz təsiri altına aldı. Beləliklə, XX əsr Azərbaycan poeziyasında Sabir üslubunda yazan şairlərin sayı artdı.

## Metodlar

Məqalədə qarşıya qoyulan məqsədlərin gerçəkləşdirilməsi praktik materialın təhlilinə əsaslanır. Belə ki, Əli Nəzminin Mirzə Ələkbər Sabir ədəbi məktəbinin davamçısı kimi tədqiqi hər iki sənətkarın yaradıcılıq xüsusiyyətlərini üzə çıxarmağa imkan yaratdı. Onların yaradıcılıqlarının müqayisəsi zamanı Əli Nəzminin özünəməxsus yaradıcılıq novatorluğuna malik olmasına aydınlıq gətirildi. Bunun üçün müqayisəli metoddan, tarixi-müqayisəli yanaşma üsulundan istifadə olunmuşdur.

## Nəticələr

– Mənbələrə əsasən demək olar ki, Sabir ədəbi məktəbi o dövr üçün böyük tarixi hadisə idi.

– Sabir poeziyası estetikasının proqramı insanlarda özünütənqid və özünütərbiyə hissləri yaratmaq, onları milli intibaha çağırışdan ibarət idi.

– Sabir satirik poeziyasının platforması vahid ictimai mübarizədə şüurlarda inqilabi çevriliş yaratmaq idi. M. Ə. Sabirin poetik novatorluğu da bu proqrama xidmət edirdi.

– Sabirin parlayan inqilabi satirasını üzə çıxaran "Molla Nəsrəddin" ədəbi mətbu orqanı olmuşdur. Bu satirik jurnalın nəşrindən sonra davamçıları şairin səsinə səs vermiş, ona sadiq silahdaş olmuşdular.

– Realist-inqilabi poeziyanın müdafiə və inkişaf etdirilməsində Sabirin silahdaşları arasında Əli Nəzminin əvəzsiz xidmətləri olmuşdur. Onun yaradıcılıq manevrasında Sabir dəsti-xəttini açıq görmək mümkündür. Yəni bu görkəmli sənətkar Sabir ədəbi məktəbinin silahdaşı kimi Azərbaycan ədəbi məktəbində özünəməxsus iz qoymuşdur.

## Müzakirə

– Ə. Nəzmi yaradıcılığının son dövrünə qədər Sabir ədəbi məktəbinə sadiq qalmışdır. Cəlil Məmmədquluzadə təsdiqləyirdi ki, M. Ə. Sabirin vəfatından sonra onun ədəbi məktəbinin ənənələrini "Molla Nəsrəddin"də davam etdirən şair məhz Əli Nəzmi olmuşdur.

– Sabir və Əli Nəzmi poetik məktəbinin kökləri, forma və ifadə vasitələri Azərbaycan şeirinin ənənələrinə söykənirdi.

– Sabir ənənələrinə sadiq olan Əli Nəzmi də onun kimi dövrün konkret tiplərinin canlı və dolğun təsvirini yaradırdı.

– Epiqon ədəbiyyata, təqlidi ədəbiyyata qarşı mübarizə aparan sənətkarlar arasında Əli Nəzmi yaradıcılığına xüsusilə rast gəlinir.

– Cəlil Məmmədquluzadə Əli Nəzmi poeziyasına yüksək qiymət verərək onu "ikinci Sabirimiz" deyə təqdir etmiş, Sabirə bərabər satirik şair adlandırmışdır.

**Əsas hissə**

Məlumdur ki, Sabirin parlayan inqilabi satirasını üzə çıxaran "Molla Nəsrəddin" ədəbi mətbu orqanı olmuşdur. Jurnalın nəşrindən sonra bir çox sənətkarlar Sabirin ətrafında toplaşaraq ona sadiq silahdaş olmuşlar. Sabirin milli poeziyaya gətirdiyi novatorluğu dəyərləndirən ilk şəxs məhz Mirzə Cəlil Məmmədquluzadə olmuşdur. XX əsr Azərbaycan ədəbiyyatında "Molla Nəsrəddin" jurnalı ətrafında fəaliyyət göstərən C. Məmmədquluzadə, M. Ə. Sabir, Ə. Nəzmi, Ə. Qəmküsar və b. "mollanəsrəddinçilər" adlı realist ədəbi məktəb yaratmışdılar.

Məlumdur ki, Sabir, Ə. Nəzmi, Ə. Qəmküsar və digər satirik şairlər (tənqidi realistlər – U. Q.) sadə xalq dilində və gizli imzalarla yazırdılar. Sabirin gizli imzalarından biri olan "Ağlar güləyən" tənqidi realizmin mahiyyətini bütün incəlikləri ilə ifadə edirdi. Milli mübarizədə özünü "dəryada duran qocaman bir dağa bənzədən" Sabir öz vətəndaşlıq mövqeyini "Şəkibai" satirasında aydın və qəti olaraq belə bildirirdi:

Yar getdikcə təhəssür dili-şeydadə durar,
Ömr vardıqca həvəs aşiqi-risvadə durar!
Seyli-tə'n oylə təməvvüclə alıb dövrü bərim –
Bənzərəm bir qocaman dağə ki, dəryadə durar!

Sabir poetik məktəbi öz kökləri, forma və ifadə vasitələri ilə Azərbaycan şeirinin ənənələrinə söykənirdi. Sabir ənənələrinə sadiq olan Əli Nəzmi də bu yolla irəliləyərək, dövrün konkret tiplərinin canlı və dolğun təsvirini yaradırdı. Bu baxımdan əminliklə deyə bilərik ki, Sabir poeziyası özündən sonra Əli Nəzmi kimi davamçılar yetişdirən əsil ədəbi məktəb idi.

Ə. Nəzmi yaradıcılığının sonuna qədər Sabir şeir məktəbinə sadiq qalmışdır. Cəlil Məmmədquluzadənin özü də təsdiqləyirdi ki, M. Ə. Sabirin vəfatından sonra onun şeir məktəbinin ənənələrini "Molla Nəsrəddin"də davam etdirən şair Əli Nəzmi idi. Məlumdur ki, M. Ə. Sabir və Əli Nəzmi 1905-ci il inqilabi çarpışmalar dövrünün yetirmələridir. Əli Nəzmi Sabirlə "Molla Nəsrəddin" səhifələrində tanış olmuşdur. Sabiri yetişdirən "Molla Nəsrəddin" jurnalı Ə. Nəzmini də bir şair kimi tanıtmış və üslubunu formalaşdırmışdır. Mollanəsrəddinçi şairlər sırasında üslubca Sabirə ən yaxın olan şair Əli Nəzmidir. Jurnalın

yaranışının ikinci ilindən, yəni 1907-ci ildən başlayaraq Əli Nəzmi Sabirə nəzirə, bənzətmə və cavablar yazmışdır.

Əli Nəzmi Sabir ədəbi məktəbinin böyük nümayəndəsidir. Köhnə şeir ənənələrinin əsiri olan müəlliflər ancaq gülü, bülbülü, şərabı, gözəlliyi vəsf edirdilər. Belə mövzu kasadlığı və ədəbiyyatın ictimai həyatdan ayrı düşməsi onları təqlidçiliyə sövq edirdi. M. Ə. Sabir ənənədən təqlid kimi istifadə edənləri, klassik poeziyadakı epitetləri get-gedə gülünc şəklə salanları "Ey annın ay, üzün günəş, ey qaşların kəman!" ironik rədifli satirasında belə ifşa etmişdi:

"Ey annın ay, üzün günəş, ey qaşların kəman!
Ceyran gözün, qarışqa xətin, kakilin ilan!!".
(Qəhrəmanova, 2024, s. 32 – 33).

"Göründüyü kimi, Sabir klassik poeziyada mövzu qıtlığı üzündən söz oyununa fikir verilməsinin acı nəticələrini kəskin satira atəşinə tutmuşdur. O, əsrlərdən bəri gözəlin tərifinə həsr edilmiş şeirlərdə əvvəllər xoş təsir buraxan epitetlərin getdikcə yersiz təriflərdən bayağılaşdığına qəhqəhə çəkmişdir. Bu qəhqəhələr epiqonçuluğa, poeziyada təqlidçiliyə və s. birdəfəlik və sarsıdıcı balta vurdu" (Qəhrəmanova, 2024, s. 28 – 29).

M. Ə. Sabir yaradıcılığında özünütənqid üsulunu seçərkən öz sələflərindən, klassik sənətkarlardan ustalıqla bəhrələnmiş, lakin heç vaxt təkrara, təqlidə yol verməmiş, daim orijinal yazı tərzi nümayiş etdirmişdir. M. Ə. Sabir klassiklərdən götürdüyü ənənələrdən bəhrələnərək parodiyalar, nəzirələr yazarkən bədii ifadə vasitələrinə, bədii-ictimai fikir tarixinə yeniliklər, yeni surətlər gətirən novator sənətkara çevrilmişdir. Sabir klassik sənətkarların poetik irslərinə yaradıcılıqla yanaşmış, mübarizə meydanında öz səsini məharətlə sələflərinin səsinə qatmışdır.

Təqlidi ədəbiyyata atəş püskürən sənətkarlar arasında Sabir ədəbi məktəbinin davamçısı olan Əli Nəzmi yaradıcılığının özünəməxsus yeri vardır. Belə ki:

"Saqqalı uzun, guşi pühən, naqədəhəndir,
Alnı iki barmaq, gözü dar, boynu gərəndir"
(Novruzov, 1992, s. 39).

Göründüyü kimi, hər iki sənətkar epiqonçu formalist şeirlərə qarşı üsyan etmiş, epiqon ədəbiyyatının "poetik möveyi"ni ifşa və tənqid etmişdi. Hər iki sənətkarın şeirləri məsnəvi

formasında yazılmış və tənqidi realizmə aid xüsusiyyət olaraq mücərrəd obrazların deyil, konkret tiplərin, obrazların portretləri yaradılmışdır.

Sabir ənənəsinə uyğun olaraq Əli Nəzmi də "pul" mövzusunda bir sıra satirik şeirlər yazmışdır. Sabir "Pula təvəccöh" satirasında pulpərəst bir tacirin mənəvi simasını belə açıb göstərmişdir:

"Nuri-çeşmanımmısan, ey pul, ya canımmısan?
İsmətim, namusum, irzim, qeyrətim, qanımmısan?"
(Qəhrəmanova, 2024, s. 251)

Əli Nəzmi isə "Pul" şeirində pulun cəmiyyətdəki hökmranlığını, onun böyük ictimai bəlaya çevrilməsini belə ifşa etmişdir:

"Şiri qılan gədasifət, etdirən onu payimal,
Susduran adlı natiqi, eylədən ortalıqda lal"
(Novruzov, 1992, s. 39).

Əli Nəzminin "Molla Nəsrəddin"də "Həcamətverdi" imzası ilə çap etdirdiyi ilk satirası "Çayda çapana" cavab satirasıdır. Əli Nəzmi bu əsəri Sabirin "Tömeyi-nəhar" satirasının mövzusundan bəhrələnərək yazmışdır. Satira aclıq və səfalət içində yaşayan millətin acı həyatını əks etdirir. Hər iki şair eyni mövzuya müraciət etmiş və özlərinəməxsus şəkildə hadisələri qələmə almışdılar. "Çayda çapana" cavab satirasında Əli Nəzmi Zəngəzur xalqının acınacaqlı vəziyyətini, millət vəkillərinin onlara qarşı biganəliyini böyük ustalıqla qələmə almışdır.

M. Ə. Sabir:

"Çığırma, yat, ay ac toyuq, yuxunda çoxca darı gör!
Sus, ay yazıq, fəzadəki üqabi-cançikarı gör"
(Hüseynov, 1962, s. 126)

Əli Nəzmi:

"Bilmirəm axır nədir
Fikrin, a çayda çapan?"
(Hüseynov, 1962, s. 126)

Əli Nəzminin "İstixarə" satirasının mövzusu təxminən Sabirin "Tək səbir" satirası ilə eynilik təşkil edir. Bu, Əli Nəzminin Sabir ədəbi irsinə olan vurğunluğunun bariz nümunəsidir. Belə ki, Sabir yaradıcılığında olduğu kimi, Əli Nəzminin satiralarında da çalışmayan, elm və maarifə dəyər verməyən, xalqın maariflənməsi üçün məktəblər açmağa

pul sərf etmək istəməyən cəmiyyət üzvləri tənqid olunur. “İstixarə”nin hər misrası, beyti, bəndi forma, üslub və məzmunca “Tək səbir”lə uzlaşır (Nəzmi, 1959, s. 126)

“İstixarə”:

Fikr edirik biz də bir iş başlayaq,
Eyləyirik istixarə, bəd gəlir.

“Tək səbir” satirası:

Andıra qalmış nə yaman səslənir!
Söz deməyə vermir aman, səslənir!

M. Ə. Sabirin “Səbr eylə” satirasında olduğu kimi, Əli Nəzmi də “Yorğun bir baxış” adlı məşhur satirasında fikirlərini birbaşa deyil, dolayısı ilə, məcazi mənada ifadə etməklə zülmə boyun əyməyin əleyhinə çıxırdı. Bu şeirlərin hər birində köləlik boyunduruğu altında inildəyən Azərbaycan kəndlisini intibah və mübarizəyə sövq etmək ruhu sezilir. M. Ə. Sabirin “Səbr eylə” satirasından:

Bəlayi-fəqrə düşdün, razı ol, biçarə, səbr eylə!
Üzün oldisə gər külfət yanında qarə, səbr eylə!

Əli Nəzminin “Yoğun bir baxış” satirası:

Al boynuna boyunduruğu, baxma zəhmətə,
Əy boynunu, öküz kimi döz dərdə, möhnətə.

M. Ə. Sabir “Əzrailin istefası” adlı məşhur satirasında savadsız, yalançı və nadan həkimləri insanlar üçün əsil əzrail adlandıraraq onları ifşa edirdi. Sabirin bu satirasına cavab olaraq Əli Nəzminin yazdığı “Əzrailə xitabi-rəbbani” adlı şeirdə isə bu tip həkimlərə inanan avam camaat tənqid atəşinə tutulur. Əgər Sabir cahil həkimləri əzrailin dili ilə həcv edirsə, Əli Nəzmi avam, geridə qalmış kütləni “allahın dili” ilə tənqid edirdi.

M. Ə. Sabir:

Başqa bir xidmətə nisbən məni qıl minnətdar,
Əzrail olmağı ver iş bu təbibə zinhar.

Əli Nəzmi:

Sırf cahil, özü xər , adı həkim,
Onlara mən nə zaman göndərdim?

Ədəbiyyatşünas Firudin Hüseynov "Sabir və Əli Nəzmi" adlı məqaləsində qeyd edirdi ki, mollanəsrəddinçi şairlər sırasında üslubca Sabirə ən yaxın olanı şair Əli Nəzmidir. Əli Nəzmi Sabir ədəbi məktəbinin böyük nümayəndəsidir. Onu bir şair kimi tanıdan, üslubunu müəyyənləşdirən "Molla Nəsrəddin" jurnalı idi. "Məşədi Sijimqulu" imzası Əli Nəzminin "Molla Nəsrəddin" jurnalında işlətdiyi gizli imzalardan biridir. Mirzə Ələkbər Sabir "Məsləhət" ("Ağrın alım, ay Məşəd Sijimqulu") adlı satirasını Əli Nəzminin 1908-ci ildə "Molla Nəsrəddin" jurnalının 23 mart tarixli 12-ci sayında eyni adlı şeirinə cavab olaraq yazmışdır. Sabir bu şeirini Əli Nəzmidən ilham alaraq yazmışdır:

Molla, sənə eyləyirəm məsləhət:
Söylə görüm, evlənim, evlənməyim?
Atmışı sinnim eyləyibdir güzəşt,
Bir qız alıb, evlənim, evlənməyim?
(Şərif , 1963, s. 21)

M. Ə. Sabirin "Məsləhət" ("Ağrın alım, ay Məşəd Sijimqulu") adlı satirası ilk dəfə "Molla Nəsrəddin" jurnalının 6 aprel 1908-ci il tarixli 14-cü sayında imzasız çap olunmuş və bütün nəşrlərə daxil edilmişdir ("Hophopnamə", 2004, s. 368).

Mirzə Ələkbər Sabir:

Ver pulunu, dadlı, ləzətli zad al!
Qoy babalın boynuma, get arvad al

"Məsləhət" satirasında Mirzə Ələkbər Sabir qadın hüququnun tapdalanması, çoxarvadlılıq, qoca kişilərin azyaşlı, məsum qızlarla evlənməsi kimi xoşagəlməz hallara qarşı etiraz səsini ucaltmışdır. Belə ki, altmış yaşı çoxdan keçmiş qoca kişinin nəvəsi yaşında qızla evlənmək kimi çirkin niyyətini şair bu süjet daxilində böyük ustalıqla açıb göstərmiş, ona qarşı oxucuda qəzəb və ikrah hissi oyatmağa nail olmuşdur.

Qəliz, anlaşılmaz söz və ibarələrlə dolu mənasız şeirlər yazan şairləri tənqid hədəfi edən Əli Nəzmi Sabir sənətindən bədii bir meyar kimi istifadə edirdi. "Şəlalə" və "İqbal"da iştirak edən qafiyəpərdazların özlərini Sabirə bənzətmələrinə rişxənd edir, şeir və sənətə divan tutan bu "sehrkar şairləri" Sabirlə müqayisədə bir heç sayırdı. 1913-cü ildə yazdığı "Maşallah"adlı şeirində Əli Nəzmi Sabirin vəfatından sonra ədəbiyyat aləmində yalançı ibarəçilərin çoxaldığını təəssüflə xatırladırdı:

Şair olan azaldı, hətta belə yoxaldı.
"Xürrəm"lərin aşından millət yedi, toxaldı.

– deyən Əli Nəzmi "Şəlalə" məcmuəsində iştirak edən mürtəce şairlərə istehza ilə yanaşır, yeri düşdükcə ustadını yüksəklərə qaldırırdı. Sabirin vaxtsız ölümü Əli Nəzmi üçün

– çox ağır itki oldu. Böyük şairin mollanəsrəddinçilər sırasından getməsi Azərbaycan ədəbiyyatında dərin bir boşluq yaratdı. Bunu hiss edən Əli Nəzmi 1911-ci ildə "Molla Nəsrəddin"də dərc etdirdiyi "İl axırı" satirasında yazırdı:

"Bu il bizdən ayrıldı istəkli Sabir
Bizi qoydu qəmgin o istəkli şair.
Fəraqilə qıldı pərişan xatir,
Səhayif qalıb boş, şikəst oldu xamə"…
(Xəndan, 1940, s. 129).

Cəlil Məmmədquluzadə yazırdı: "Sabir heç kəsə yox, bəlkə Sijimqulu Sabirə oxşayıbdır. "Molla Nəsrəddin" dünyasında "Molla Nəsrəddin"ə yaraşan şivənin məzəliliyi və duzluluğunda məharət və lətafətdə Sabirə yavuq gələn və ona əvəz olan birinci "Məşəd Sijimqulu Kefsiz" olubdur" (Hüseynov, 1962, s. 124 – 125).

Sabirin satiralarındakı bədii vasitələrdən istifadə edən Əli Nəzmi də Sabir kimi yaratdığı obrazları öz dilləri ilə danışdırır və ifşa edirdi. Tənqidi realizm ruhunda yazan satiriklərin yaradıcılığında milli durğunluq və ətalət mövzusu xüsusi yer tuturdu. Bu tənqidi realistlərin əsərlərində Şərq oblomovçuluğunu xatırladan tiplərin surətlərinə tez-tez rast gəlmək mümkündür. Əli Nəzmi "Yat" rədifli satirasında ictimai soyuqqanlılığı, tənbəlliyi satirik məharətlə belə ifşa edirdi:

"Axşam namazını tələsik qıl, yubanma yat,
Sol böyürün üstünə uzanıb, qurdalanma yat!..."
(Novruzov, 1992, s. 40)

Məlumdur ki, Əli Nəzmi gözüaçıq sənətkar idi, "Sabir ədəbi məktəbinin görkəmli simalarından birincisi idi" (Novruzov, 1992, s. 47). Belə ki, o öz dövrünün qabaqcıl siyasi hadisələrini izləyir, irticaya və əksinqilaba qarşı çıxırdı. Sabirdən sonra inqilabi-satirik poeziya məktəbinin parlaq siması məhz Əli Nəzmi idi. Şərq oblomovçuluğu, yəni "passiv müsəlman mömüni" mövzusu inqilabi satirik poeziyanın ən aparıcı mövzusu olub. Bu mövzu Sabir satirik yaradıcılığının isə ən ali mövzusu idi. Belə ki, "Dindirir əsr bizi, – dinməyiriz" ironiyası ilə başlayan bu misralar təkcə Azərbaycan xalqının deyil, bütün Şərqi müsəlman xalqlarının tərəqqi əsrindəki vəziyyətinin ümumiləşdirilməsidir.

"Dindirir əsr bizi, – dinməyiriz,
Açılan toplara diksinməyiriz;
Əcnəbi seyrə balonlarla çıxır,
Biz hələ aftomobil minməyiriz"
("Hophopnamə", 2004, s. 285).

**Nəticə**

Göründüyü kimi, Sabir və onun davamçıları öz xalqını inkişafa, tərəqqiyə səsləyirdilər. Azərbaycan tənqidi realistləri hadisələrə yalnız tənqidi mövqedən yanaşmır, eyni zamanda xalqa inkişafın, irəliyə getməyin zəruri olduğunu anlatmağa çalışırdılar. Deməli, "Şərq oblomovçuluq" əslində ictimai ətalət, tərəqqiyə etinasız münasibətdir. O, mədəni geriliyin təməl daşıdır.

Sabirin realist-inqilabi poeziyasının mövqelərini müdafiə və inkişaf etdirən silahdaşları arasında Əli Nəzminin adını xüsusilə çəkmək olar. Onun yaradıcılıq manevrasında Sabir dəsti-xəttini açıq görmək mümkündür. Sabir poetik məktəbi öz kökləri, forma və ifadə vasitələri ilə Azərbaycan şeirinin ənənələrinə söykənirdi. Sabir ənənələrinə sadiq olan Əli Nəzmi də bu yolla gedərək, dövrün konkret tiplərinin canlı və dolğun təsvirini yaradırdı. Bu baxımdan əminliklə deyə bilərik ki, Sabir poeziyası özündən sonra Əli Nəzmi kimi davamçıları olan böyük ədəbi məktəbə çevrilmişdir.

**Ədəbiyyat**


1. Cəfər, Ə. (2012). *"Sabirin yaradıcılığında təhzil, nəzirə və bənzətmələr".* M.Ə.Sabir haqqında tədqiqlər. "CBS".
2. Xəndan, C. (1962). *Sabir yaradıcılığının sənətkarlıq xüsusiyyətləri*. "Azərnəşr".
3. Xəndan, C. (1940). *Sabir.* "EA AzF".
4. Şərif, Ə. (1962). Sabirin nəzirələri. "*Azərbaycan jurnalı",* № 5.
5. Şərif, Ə. (1963*). Sabir və Molla Nəsrəddin.* Sabir (Məqalələr məcmuəsi). "Az SSR EA".
6. Hüseynov, F. (1962). Sabir və Əli Nəzmi. "*Azərbaycan jurnalı"*, № 5.
7. Qəhrəmanova, U. (2024*). Klassik sənətkarlarımız və Sabir yaradıcılığı.* "Elm və təhsil".
8. Nəzmi, Ə. (2006). *Seçilmiş əsərləri.* "Şərq-Qərb".
9. Novruzov,T. (1992). *Sabir ədəbi məktəbi.* "Yazıçı".
10. Sabir, M. Ə. (2004*). "Hophopnamə".* Tərtib edən, müqəddimə və şərhlərin müəllifi Məmməd Məmmədov. I c. "Şərq-Qərb".